Bülleten No: 20 / avqust 2014

Elektron Hökumət Portalı
your gateway to all public services

AZƏRBAYCAN RESPUBLİKASI
RABİTƏ VƏ YÜKSƏK
TEXNOLOGİYALAR NAZİRLİYİ

www.e-gov.az

AVQUST 2014

# Elektron Hökumət Bülleteni



## Vətəndaş və dövlət qurumları münasibətlərində yeni səhifə



VAXTA QƏNAƏT



ŞƏFFAF



ƏLVERİŞLİ



RAHAT



SYSTEM CERTIFICATION ISO 9001 SGS
UKAS ENVIRONMENTAL MANAGEMENT 005

# Azərbaycan "Elektron hökumətin inkişafı indeksi" üzrə əvvəlki mövqeyini 28 pillə artırıb



Rabitə və Yüksək Texnologiyalar naziri Əli Abbasov 2014-cü ilin 1-ci yarımilliyinin yekunlarına həsr olunmuş kollegiya iclasında, ölkə prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2014-cü ilin birinci yarımilliyinin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında prezidentin nitqindən irəli gələn vəzifələr barədə danışaraq, respublikada aparılan uğurlu iqtisadi islahatlar nəticəsində qeyri-neft sektorunun dinamik inkişafına və artım tempinə nail olunduğunu qeyd edib. Rabitə və yüksək texnologiyalar sektorunda uğurlu inkişaf tendensiyasının davam etdiyini vurğulayan nazir əldə edilən nailiyyətlərin beynəlxalq təşkilatlar tərəfindən də yüksək qiymətləndirildiyini diqqətə çatdırıb. Belə ki, Dünya İqtisadi Forumunun "Qlobal İnformasiya Texnologiyaları 2014" ("The Global Information Technology Report 2014") hesabatında Azərbaycan "Şəbəkələşmə Hazırlığı İndeksi"nə görə əvvəlki mövqeyindən 7 pillə irəliləyərək dünyanın 148 ölkəsi arasında 49-cu yerə yüksəlib. Ölkəmiz hər 100 nəfərə düşən internet istifadəçilərinin sayına görə 148 ölkə arasında 59-cu yeri tutmaqla MDB-də liderlik mövqeyini qoruyub saxlayır. BMT-nin ənənəvi olaraq hər iki ildən bir nəşr etdiyi "E-Hökumət müayinəsi 2014" adlı hesabatın builki nəşrində Azərbaycan 193 ölkə arasında "Elektron hökumətin inkişafı indeksi" üzrə əvvəlki mövqeyini 28 pillə artıraraq 96-cı yerdən 68-ci yerə yüksəlib.

# Koreyalı mütəxəssislər RYTN-in nəzdində Elektron Hökumət üçün Təlim Mərkəzi yaradırlar

Koreya Beynəlxalq Əməkdaşlıq Agentliyi (KOICA) "Azərbaycanda Elektron Hökumət üçün Təlim Mərkəzinin Yaradılması" layihəsi çərçivəsində ölkəmizə mütəxəssis qrupu ezam edib. Azərbaycan Respublikası Rabitə və Yüksək Texnologiyalar Nazirliyinə (RYTN) ezam olunan mütəxəssislər 5-27 iyul arasında avadanlıqların quraşdırılması, 2-17 avqust tarixlərində isə avadanlıqların təftişi ilə məşğul olacaq.

Ezamiyyətin məqsədi Bakı Təlim Mərkəzinin yaradılması üçün zəruri olan informasiya texnologiyaları avadanlıqlarının quraşdırılması, bilik və texnologiyanın ötürülməsi ilə sabit fəaliyyətin saxlanılması, yerli təlim mərkəzlərinə məsul olan mütəxəssislərin təlimidir. Daha sonra koreyalı mütəxəssislər 15 yerli təlim mərkəzlərində quraşdırılmış avadanlıqların statusunu təftiş edəcək, Bakı təlim mərkəzi ilə şəbəkələrin yoxlanılmasını həyata keçirəcək.

Xatırladaq ki, "Azərbaycanda Elektron Hökumət üçün Təlim Mərkəzinin Yaradılması" ilə bağlı Koreya Respublikasının Xarici İşlər Nazirliyi və Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi arasındakı Qrant Razılaşması 2013-cü ilin aprelin 18-də Koreya Respublikasının Azərbaycandakı səfiri Çoi Suk İnn və rabitə və informasiya texnologiyaları naziri Əli Abbasov tərəfindən imzalanıb.

3,7 milyon ABŞ dolları məbləğində büdcəyə malik layihə Koreya Beynəlxalq Əməkdaşlıq Agentliyi (KOİKA) tərəfindən həyata keçirilir. Layihənin məqsədləri elektron Təhsil İnformasiya Sisteminin yaradılması, mərkəzi və regional e-hökumət təlim mərkəzinin qurulmasına dəstək verilməsi, informasiya texnologiyaları avadanlıqlarının təchiz edilməsi, azərbaycanlı dövlət qulluqçularının İKT potensialının artırılması, İKT və e-hökumət potensialının təşviq olunmasıdır.

www.e-gov.az

# “Elektron kənd təsərrüfatı” sisteminin yaradılması ilə bağlı texniki şərtlərin hazırlanmasına başlanılıb




“Elektron kənd təsərrüfatı” sisteminin yaradılması barədə respublika prezidentinin tapşırığına əsasən, Avropa Komissiyası ilə əməkdaşlıq çərçivəsində zəruri ehtiyacların müəyyənləşdirilməsi məqsədilə mövcud hüquqi və təşkilati çərçivələr təhlil edilib və texniki şərtlərin hazırlanmasına başlanılıb.

Moduldan ibarət olan bu sistem torpaqların və fermerlərin reyestri, habelə heyvanların identifikasiyası və qeydiyyatı komponentləri də daxil olmaqla, kənd təsərrüfatı sahəsi üzrə real və dürüst məlumatların əldə edilməsinə imkan verəcək.

Bu fikri kənd təsərrüfatı naziri Heydər Əsədov prezident İlham Əliyevin sədrliyi ilə keçirilən Nazirlər Kabinetinin 2014-cü ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında bildirib. Nazir bildirib ki, eyni zamanda, “Aqrolizinq” ASC-nin, Dövlət Texniki Nəzarət Müfəttişliyinin fəaliyyətinin və süni mayalanma işləri üzrə informasiya bazalarının elektron uçot sisteminə keçirilməsi işlərinə başlanılıb, Dövlət Fitosanitar Nəzarəti Xidməti tərəfindən göstərilən üç xidmət elektron xidmətlərin siyahısına daxil edilib.

# Elektron İnformasiya Köşklərinin quraşdırılmasına başlanılıb




Binəqədi Rayon İcra Hakimiyyəti tərəfindən rayon ərazisində Elektron İnformasiya Köşklərinin quraşdırılmasına start verib. Bununla bağlı Rayon İcra Hakimiyyətinin binasında təqdimat mərasimi keçirilib. Tədbirdə çıxış edən Binəqədi Rayon İcra Hakimiyyəti başçısının birinci müavini İlqar Süleymanov respublikamızda İnformasiya Kommunikasiya Texnologiyalarının inkişafı sahəsində görülən işlərlə bağlı məlumat verib:

«İKT sahəsində görülən işlər və qazanılan nailiyyət nəticəsində Azərbaycanın BMT-nin İKT ilə bağlı son hesabatında 28 pillə irəliləyib. Bu sahədə daha ciddi nailiyyətlərə imza atmaq istiqamətində dövlətimiz tərəfindən məqsədyönlü işlər görülür. ASAN Xidmətin yaradılması, İKT ilə bağlı yeni-yeni proqramların qəbulu və icra olunması bunlardan biridir. Azərbaycanın ilk süni peykinin buraxılması, eləcə də digər atılan addımlar deyilənləri təsdiqləyir. Binəqədi rayonu ərazisində də İKT-dən daha səmərəli istifadə, onun tətbiqi, elektron xidmətlərin göstərilməsi prosesinin sürətləndirilməsi istiqamətində məqsədyönlü tədbirlərin həyata keçirilir. 2013-cü ilin əvvəllərindən etibarən Binəqədi Rayon İcra Hakimiyyətində sakinlərin müraciət xidməti yaradılıb.
Ötən müddət ərzində rayon sakinləri tərəfindən bu xidmətə on minlərlə müraciət daxil olub. Həmçinin, rayon ərazisinin elektron xəritəsi hazırlanıb, rayonun ərazi icra nümayəndələri ilə video konfransların keçirilməsi mümkün olub».

Tədbirdə daha sonra çıxış edən Binəqədi Rayon İcra Hakimiyyətinin Sənədlər və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri Elnur İmanov Elektron İnformasiya Köşkü barədə ətraflı məlumat verib: «İlkin mərhələdə rayon sakinləri rayonun 3 ərazisində quraşdırılan Elektron İnformasiya Köşkü vasitəsilə Rayon İcra Hakimiyyəti başçısı, onun müavinləri, aparatın şöbə müdirlərinin qəbul günlərinin qrafiki, icra hakimiyyəti başçısının ərazilərdə keçirdiyi səyyar görüşlər, ərizə formalarının nümunələri və sənədlərin siyahısı barədə məlumat ala bilərlər.

Hələlik yalnız Azərbaycan dilində olan köşklərdə tələbat olacağı təqdirdə digər dillərdən də istifadə mümkünlüyü yaradılacaq. Elektron İnformasiya Köşkündə həmçinin Binəqədi rayonunun elektron xəritəsi, rayon ərazisində aparılan abadlıq-quruculuq işləri, gələcək layihələr haqqında məlumat, Binəqədidə yerləşən idarə-müəssisələr, onların ünvanları, rayondakı dövlət qurumları, təhsil, səhiyyə, turizm, idman, mədəniyyət müəssisələri barədə məlumatlar əksini tapıb. Yaxın vaxtlarda bu cür köşklər daha 4 yerdə quraşdırılacaq. Bununla Elektron İnformasiya Köşklərinin sayı 7-yə çatacaq. Sonrakı mərhələdə isə bu kimi köşklərin rayonun kənd və qəsəbələrində də quraşdırılması nəzərdə tutulur. Bu isə şəffaflığın artırılmasına xidmət edir. Bununla vətəndaş heç bir məmurla təmasda olmadan İcra Hakimiyyətinə müraciət edə bilər».

# TQDK imtahan nəticələrini açıqladı (www.e-gov.az/az/services/read/2641)




Tələbə Qəbulu üzrə Dövlət Komissiyası (TQDK) iyul ayının 31-də 2014/2015-ci tədris ili üçün ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinin jurnalistika ixtisasına qəbul olmaq istəyən abituriyentlər üçün qabiliyyət imtahanı keçirmişdir.

İmtahanda iştirak etmiş abituriyentlər avqustun 1-i saat 18:00-dan etibarən öz elektron ərizələrinə daxil olaraq (www.e-gov.az/az/services/read/2641) imtahan nəticələri və yazı işlərinin qrafik təsviri ilə tanış ola bilərlər.

İmtahanda iştirak etmək hüququ qazanmış 441 abituriyentdən 315 nəfəri imtahana gəlməmişdir. İmtahanda iştirak edən 126 abituriyentdən 51 nəfəri məqbul qiymət almışdır. Onlardan 45 nəfəri Azərbaycan, 6 nəfəri isə rus bölməsinin abituriyentləridir.

Məqbul qiymət almış abituriyentlər ixtisas seçimi zamanı öz elektron ərizələrində digər ixtisaslarla yanaşı jurnalistika ixtisasını da seçə bilərlər.

Abituriyentlər imtahan nəticələri ilə bağlı avqustun 4-də saat 10:00-dan 17:00-dək TQDK-da yaradılmış apelyasiya komissiyasına müraciət edə bilərlər.

# Səlim Müslümov: "İşəgötürənlər əmək müqavilələrini elektron sistemdə aktiv şəkildə qeydiyyata almağa başlayıblar"



Əmək müqavilələri bağlamadan işçi çalışdıraraq əmək haqlarını qeyri-rəsmi formada verməklə məcburi ödəmələrdən yayınan işəgötürənlərə qarşı səmərəli tədbirlərin görülməsi barədə respublika prezidentinin tapşırığının icrası olaraq, aidiyyəti dövlət orqanları ilə birlikdə problemin həlli yolu kimi keçən ilin sonunda əmək müqavilələrinin elektron qeydiyyatı sisteminin yaradılmasına başlanılıb.

Bu prosesin hüquqi əsaslarını təmin etmək üçün 2013-cü ilin dekabrında qanunvericiliyə müvafiq dəyişikliklər edilmiş, bundan sonra həmin informasiya sistemi yaradılaraq "Elektron hökumət" portalında yerləşdirilib, 2014-cü il iyulun 1-dən isə istifadəyə verilib.

Hazırda işəgötürənlər əmək müqavilələrini bu sistemdə aktiv şəkildə qeydiyyata almağa başlayıblar.

Bu fikri əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümov prezident İlham Əliyevin sədrliyi ilə keçirilən Nazirlər Kabinetinin 2014-cü ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında bildirib.

Nazir qeyd edib ki, bu elektron informasiya sistemi qeyri-leqal əmək münasibətlərinin qarşısının alınmasında, muzdlu işçilərin əmək hüquqlarının müdafiəsinin gücləndirilməsində, dövlət büdcəsinin gəlirlərinin və sosial sığorta haqlarının artmasında, həmçinin əmək bazarının təhlili üçün informasiya bazasının formalaşdırılmasında mühüm rol oynayacaq:

"Bununla bərabər, hesabat dövründə əmək qanunvericiliyinin gözlənilməsinə nəzarət üzrə inzibati tədbirlər də sərtləşdirilib. Bu tədbirlər və vətəndaşların müraciətlərinin araşdırılması zamanı 9269 halda işəgötürənlər tərəfindən əmək qanunvericiliyinin tələblərinin pozulduğu aşkar edilib, 2 milyon 352 min manat məbləğində cərimə tətbiq olunub və bunun 35,3 faizi dövlət büdcəsinə ödənilib ki, bu da keçən ilin müvafiq dövrünə nisbətən 23 dəfə çoxdur. Ötən 6 ay ərzində 5613 işçi ilə əmək müqaviləsinin bağlanılması təmin olunub".

www.e-gov.az

# “Elektron hökumət” portalında innovativ yenilik “Mənim xidmətlərim”



“Elektron hökumət” portalı formalaşmağa başladığı ilk gündən vətəndaş-hökumət və hökumət-vətəndaş qarşılıqlı münasibətlərində ictimai tələblərin ödənilməsi daima əsas prioritet məsələ olmuşdur.

. Hal-hazırda “Elektron hökumət” portalında 351 elektron xidmət əhalinin istifadəsinə verilmişdir. Portalın əsas hədəfi ictimai əhəmiyyət kəsb edən və populyar xidmətləri bir məkanda toplamaqla məhdudlaşmır. “Elektron hökumət” portalı öz işini istifadəçi tələbatı və marağı üzərində mərkəzləşdirir.

Yeni təqdim olunan “Mənim xidmətlərim” funksionallığı sırf bu məqsədə xidmət edir

. “Elektron hökumət” portalı “Mənim xidmətlərim” servisi vasitəsilə istifadəçiyə öz maraq dairəsində olan və daha çox istifadə etdiyi elektron xidmətlərini öz istəklərinə uyğun olaraq fərdi qaydada qruplaşdırmaq imkanı yaradır. Elektron Hökumət portalı auditoriyasının müxtəlif maraq və iş sahələrinin olması bunu zəruri edir.

İstifadəçi xidmətləri öz istəyinə uyğun olaraq qruplaşdırdıqdan sonra, istifadəçinin portala daxil olaraq çoxsaylı xidmətlər arasından özünə lazım olanı axtararaq vaxt itirmək məcburiyyətində qalmayacaq. İstifadəçi gündəlik tələbatına uyğun, ən çox istifadə etdiyi xidmətləri “Mənim xidmətlərim” servisi vasitəsilə birləşdirərək dəyərli vaxtına qənaət etmiş olacaq. Tutaq ki, ödəmə ilə bağlı elektron xidmətlərdən istifadə edən istifadəçi sadəcə bir düymə ilə daima istifadə etdiyi ödəniş xidmətlərini eləcə də daha çox istifadə etdiyi digər xidmətləri bir bölmədə toplamağa nail olacaq. İstifadəçi istənilən sayda xidmət qrupu yarada və bir qrupda istənilən sayda xidmət yerləşdirə bilər. Eyni zamanda xidmət qrupunu ləğv etmək və ya qrupdan hansısa xidməti çıxarmaq da mümkündür.

## “Mənim xidmətlərim” servisinin izahlı təsviri:

İstifadəçi “Elektron hökumət” portalına daxil olaraq, təqdim olunan giriş vasitələrindən birini seçərək autentifikasiyadan keçir. E-xidmətlər bölməsini seçərək ümumi xidmətlər siyahısına daxil olur. Bu bölmədə qruplar olan cərgədə yerləşdirilmiş “+ “ - əlavə et işarəsini seçdikdən sonra, ən çox istifadə etdiyi e-xidmətlər üçün başlıq qeyd edərək grup yaradır:







Daha sonra, müvafiq qurumlara daxil olaraq istifadə etdiyi e-xidmətin qarşısında yerləşən ulduz işarəsini seçir.







Məlumdur ki, istifadəçi rahatlığı, interfeys rahatlığı, əlyetərlik, şəffaflıq və s. kimi faktorlar portalın əsas vəzifələrindəndir. Təqdim olunan “Mənim xidmətlərim” bir növ vətəndaşın fərdi xidmət portfeli rolunu oynayaraq vaxta qənaət və rahatlığın təminatının optimal üsuludur.

# Böyük Britaniyada Sürücülük vəsiqələri ləğv ediləcək




Gələn ildən Böyük Britaniyada kağız sürücülük vəsiqələri elektron analoqları ilə əvəz ediləcək. Belə ki, “View Driving Record” adlı elektron sistemin işə düşməsi planlaşdırılır. Bu sistem sentyabrdan etibarən hər bir sürücünün hansı nəqliyyat vasitəsini idarə etmək hüququna malik olmasını, nə qədər cərimə balı almasını, sürücülük vəsiqəsinin nə vaxt qüvvədən düşməsini öyrənməyə imkan verəcək.
Yerli hökumət həmçinin avtomobil icarədarlarına, sığortaçılara, işəgötürənlərə və sürücülük təlimatçılarına sürücülər haqqında informasiya əldə etməyə imkan verəcək "Share My Driving Record” xidməti üzərində iş aparır. Böyük Britaniyanın sığorta şirkətlərində ümid edirlər ki, yeni sistem sığorta üçün müraciət edən insanların sürücülük tarixçəsinin yoxlanılması prosedurunu sadələşdirəcək və dəqiqliyi artıracaq. Bu, həm sığorta şirkətlərinə, həm də müştərilərə pula qənaət etməyə imkan verəcək.

# "Elektron hökumət" portalında şəxsi kabinet formalaşdırılır



"Elektron hökumət” portalı addımladığı yeni inkişaf mərhələsində vətəndaşların maraqlarını diqqət önündə saxlayaraq işlərini istifadəçi məmnuniyyəti üzərində qurmağa çalışır. Nəzərdə tutulmuş mühüm tədbirlərdən biri də istifadəçilərin portalda şəxsi kabinet formalaşdıra bilmələridir. Bunun üçün dövlət qurumlarında informasiya ehtiyatlarının müəyyənləşdirilmiş tələb və standartlara uyğun elektron formaya gətirilməsi və FİN-ə uyğunlaşdırılması vacib şərtdir.
Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin (RYTN) Məlumat Hesablama Mərkəzi tərəfindən bu istiqamətdə mütəmadi tədbirlər həyata keçirilir.

İşıq, qaz və su abunəçiləri üzrə məlumat bazaları aidiyyatı Kommunal İdarələrdən alınaraq telefon abunəçiləri üzrə və Daxili İşlər Nazirliyinin şəxsiyyət vəsiqələri üzrə məlumat bazası ilə üzləşdirilmiş və uyğunluq tapılan abunəçi kodlarına səhər telefon nömrəsi və FİN kod əlavə edilmişdir.

Bunun nəticəsində portalda RYTN üzrə yerləşdirilmiş "Rabitə və kommunal xidmət haqlarının internet vasitəsilə ödənilməsi” elektron xidməti vasitəsilə vətəndaşlar kommunal kodları daxil etmədən, yalnız telefon nömrəsini daxil etməklə kommunal xidmət borclarını da rahatlıqla ödəyə bilirlər.

Hazırda qurumların informasiya ehtiyatlarının "Elektron hökumət” portalına inteqrasiya edilməsi, müvafiq servislərin hazırlanıb portalda istismara verilməsi ilə bağlı ciddi işlər aparılır. Bu sahədə işlər yekunlaşdıqdan sonra istifadəçilər portalda şəxsi kabinetlərini formalaşdıra biləcəklər və kabinetə daxil olarkən özünə aid bütün məlumatları (şəhər və mobil telefon borcları, kommunal xidmət borcları, yol hərəkət qaydalarının pozulmasına görə cərimələr və cərimə balları, öz adına olan daşınmaz əmlak, şirkət, vergi borcları və s.) asanlıqla əldə edə biləcəklər.
Ümumiyyətlə, "Elektron hökumət” portalı üzərindən qurumlararası informasiya mübadiləsi tam şəkildə təmin olunduqdan sonra vətəndaşlarla dövlət qurumları arasında birbaşa əməkdaşlıq zəifləyəcək, həm də əhaliyə göstərilən e-xidmətlərin elektronlaşma səviyyəsi və keyfiyyəti yüksəlmiş olacaq.

www.e-gov.az

# Daha bir xidmət "Elektron Hökumət" portalına inteqrasiya edildi



RYTN "CDMA şəbəkəsinə qoşulma" xidməti "Elektron Hökumət" portalına inteqrasiya edildi və vətəndaşlar bu e-xidmətdən istifadə edərək CDMA (simsiz telefon rabitəsi) şəbəkəsinə qoşulmaq imkanı əldə edə biləçəklər. İlkin mərhələdə bu e-xidmət Bakı şəhərini əhatə edir və növbəti mərhələdə Respublikanın digər şəhər və rayonlarında da abunəçilər bu xidmətdən istifadə edə biləcəklər.

CDMA şəbəkəsinə qoşulmaq üçün istifadəçi e-xidmətə daxil olaraq yaşadığı ərazinin poçt indeksini və poçt indeksinə uyğun olaraq yaşadığı küçəni seçir və ev, mənzil barədə məlumatları daxil edir. Eyni zamanda istifadəçi, servis xidmətlərinin siyahısından istədiyi servis xidmətini də seçə bilər. Bundan sonra istifadəçi öz istəyinə uyğun olaraq tarif paketini seçir.

Tələb olunan məlumatlar qeyd olunduqdan sonra portal tərəfindən istifadəçiyə birdəfəlik qoşulma haqqı, CDMA aparatın məbləği, qoşulmanı aparacaq Telefon Qovşağı haqqında, qovşağın əlaqə nömrəsi və sair məlumatlar göstəriləcək.

Bütün mərhələlər bitdikdən sonra ekranda "sifariş nömrəsi" göstərilir və istifadəçi 3 iş günü ərzində internet, Nağd ödəmə terminalları vasitəsilə və istənilən poçt və abunə şöbələrində sifariş nömrəsinə uyğun ödəniş edə bilər. Ödəniş edildikdən sonra aidiyyatı Telefon Qovşağının mütəxəssisləri xidməti həyata keçirmək üçün istifadəçi ilə əlaqə saxlayacaqlar.

Qeyd edirik ki, bununla Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Elektron Hökumət" portalına inteqrasiya edilmiş e-xidmətlərinin sayı 34-ə çatmışdır.



# Avropa Birliyinin Rəqəmsal Gündəliyi və E-Hökümət üzrə İş Planı



Rəqəmsal cəmiyyətin yaradılmasında başlıca məqsəd dövlət orqanları, vətəndaşlar və biznes qurumlar arasında səmərəli əlaqənin təşkilidir. Bir çox xidmətlərin, məsələn, şəxsi sənədlər, sertifikatlar, gəlir vergisi və məşğulluqla bağlı xidmətlərin vətəndaşlara təqdim edilməsi və şirkətin qeydiyyatdan keçirilməsi, sosial təminat, korporativ vergi, ƏDV ilə bağlı xidmətlərin biznes qurumlara onlayn təqdim olunması dövlət orqanları və vətəndaş ehtiyaclarının ödənilməsinə yardımçı olur. Hökumət iqtisadi dəyişikliklər və böhran vaxtlarında daha səmərəli işləməli və vətəndaşlar ilə eləcə də, biznes qurumlar ilə sabit əlaqəni təmin etməlidir. Bir qayda olaraq onlayn xidmətlər sahəsində innovasiyalara qoyulan kapital həmişə geri qayıdır. Həmçinin, E-hökümət idarəetmə xərclərini 15-20% azalda bilər.

Avropa bu sahədə uğurlu işlər həyata keçirir: Bu gün Avropa vətəndaşlarının 41%-i, biznes qurumların 84%-i onlayn xidmətlərdən istifadə edir və ictimai xidmətlərin 82%-dən çoxu onlayn əldə oluna bilər. Ötən illər ərzində dövlət orqanlarının veb səhifələrindən passiv istifadə dəyişilməz qaldığı halda, bu e-xidmətlərdən interaktiv yararlanma (elektron formada rəsmi sənədlərin yüklənilməsi və doldurulmuş formanın geri müvafiq subyektə çatdırılması) kəskin şəkildə artmışdır. Bununla belə, dövlət orqanları və vətəndaşların tam rəqəmsal şəkildə əks əlaqəsi və istifadəçilərin e-xidmət yaratma və təqdim etmə işləri mərkəzləşmiş qaydada təmin olunmalıdır. Bu gün Avropa Birliyi daxilində, bir çox ictimai xidmətlər ölkələrin sərhədlərindən kənarda işləmir, bir ölkə vətəndaşının digər ölkə ərazisində yeni şirkətin onlayn qeydiyyatdan keçirməsi və ya işsizlik hüququnun əldə edilməsi kimi xidmətlərdən istifadəsi, bu kimi digər xüsusi ehtiyaclar hələ də tam ödənilməyib.

E-xidmətlər sahəsində innovasiya informasiyanı hamı üçün mümkün edən texnologiyalardan geniş həcmli istifadəni ehtiva edir. Bu da öz növbəsində Avropa mədəni irsini qorumağa və digər cəmiyyətlərə çatdırılmasına kömək edir. İKT vasitəsilə Avropa mədəni irsi istirahət, tədris və kommersiya tipli rəqəmsal kitabxanalarda, arxivlərdə və muzeylərdə hamı üçün əlçatan ola bilir.

E-xidmətlərin bir çox sahələrində innovasiyaların davam etməsinə baxmayaraq, bu mərhələdə ən çətin tapşırıq innovativ çözümlərin hamı üçün əldə edilə bilən olmasını təmin etməkdir. 2011-ci ildə Avropa Birliyində 38 milyon ailənin internetə girişi yox idi və bu sahədə rəqəmsal bacarıqların olmaması ciddi məsələ olaraq qalırdı. "Rəqəmsal kənarlaşma" riski xüsusən imkansız ictimai qruplara (yaşlı, az təminatlı, işsiz, təhsilsiz və əlillərə) mənfi təsir edir. İmkansız qrupların rəqəmsal cəmiyyətdən bərabər yararlanmasını təmin etmək üçün bir tərəfdən rəqəmsal bacarıqları artırmaq, digər tərəfdən texnologiyaların hamı üçün əlçatan olmasını təmin etmək lazımdır.

Avropanın Rəqəmsal Gündəliyi bu tələblərə cavab verir, onlayn xidmətlərin inkişafı və Avropa mədəni irsinin saxlanılması, eləcə də cəmiyyətin müxtəlif qrupları arasında rəqəmsal baryeri aşmaq üçün xüsusi hədəflər yaradır.

E-hökümətin İş Planı (http://ec.europa.eu ) səmərəli e-xidmətlərə həsr edilib. Məqsəd e-hökümət xidmətlərinin hazırlanmasında və hətta siyasi qərarların qəbulunda istifadəçilərin aktiv əməkdaşlığına imkan yaratmaqdır. Bu dövlət orqanlarının açıq, şəffaf və məsuliyyətli olmağına təsir edəcəkdir. İş planı həmçinin, vətəndaş və biznes qurumların Avropa Birliyinə üzv olan digər dövlətlərdən asanlıqla, evdə olduğu kimi onlayn xidmətlərdən yararlanma məsələsinə və ümumi istifadənin artırılmasına dair tədbirlər təklif edir.

Bu istiqamətdə konkret hədəflərə aiddir:

- Hökümətlər tərəfindən informasiyanın bir dəfə qeydiyyatdan keçirilməsinin təmin edilməsi,
- AB-nin milli elektron identifikatorlardan geniş istifadəsi,
- İstifadəçi tələblərinin daha yaxşı qarşılanması üçün xidmətlərin fərdiləşdirilməsi,
- Daha açıq, aktiv və şəffaf hökümətin təsis edilməsi.

E-hökümətin İş Planı AB-nə üzv olan dövlətlərə rəsmi olaraq dövlətlərarası onlayn xidmətlərin ümumi siyahısı barədə razılığa gəlməyə və AB vahid bazarında dövlətlərarası elektron hökümət xidmətlərinin tam icrasına çağırır. Əsas hədəf AB-nin istənilən bölgəsində şirkətlərin yaradılması və idarə işinin eləcə də, tədris, iş, yaşayış, və təqaüd işinin asanlaşdırmaqdır. Bu strategiyanın açarı geniş həcmli pilot layihələrin (https://ec.europa.eu) inkişaf etdirilməsidir. Bu e-xidmətlərin Avropa Birliyi çərçivəsində hamı üçün mümkün edilmə məsələsinin həlli yollarının icrasında dövlət orqanlarını, xidmət təminatçılarını və tədqiqat mərkəzlərini bir yerə toplayır.

Avropa Rəqəmsal Gündəliyi Avropa mədəni irsinin qorunması və geniş miqyasda yayılması üçün Digital Agenda for Europe (DAE) təşkilatı Avropanın rəqəmsal kitabxanasının, arxivinin və muzeyinin inkişafı - Europeana proqramını (http://www.europeana.eu/) təqdim edir. 2008-ci ildə bu layihəyə 2 milyon məlumatla start

www.e-gov.az

verilib, hal-hazırda öz tərkibində 24 milyon informasiya obyektini birləşdirir. Avropa Komissiyası Avropa Birliyi tərkibindəki dövlətləri mədəni irsi geniş miqyasda yaymaq və yaradıcı sənayelərin inkişafı məsələsində səylərin artırılmasına dəvət edərək 2011-ci ildə Rəqəmsallaşma və Rəqəmsal Mühafizə üzrə Qaydaları (http://libereurope.eu/) təsdiq etmişdir.

Avropa Rəqəmsal Gündəliyi rəqəmsal inkişafı təmin etmək məqsədilə 2015-ci ilə qədər hədəflər müəyyən edib: internetdən heç vaxt istifadə etməyən əhali nisbətini ikiqat azaltmaq (15%-dək), ümumi əhali üçün internetdən istifadəni 60%-dən 75%-dək, imkansız insanlar (yaşlı, az təminatlı, işsiz, təhsilsiz və əlillərə) üçün 41,5%-dən 60 %-dək artırmaq. Bu isə öz növbəsində dövlət orqanları veb səhifələrinin 2015-ci ilə qədər tamamilə hamı üçün əlçatan etməyi tələb edir. Bu səbəbdən, Avropa Komissiyası 2012-ci ilin sonunda "Dövlət Orqanları Veb səhifələrinin Əlçatan edilməsi üzrə Direktiv" -lə (http://ec.europa.eu/) bağlı təklif qəbul edib və hal-hazırda Avropa Parlamenti, hökümətlər, sənaye və təşkilatlar bu Direktivin qəbul edilməsi və icra işinin sürətləndirilməsi ilə məşğuldurlar. Təklif, qəbul və icra edilən kimi əlilliyi olan 80 milyon əhali təklifdən faydalana biləcəklər.

Məsələn, görmə qabiliyyəti olmayanlar nümunələrin təsvirini eşidə biləcəklər, eşitmə maneəlilər audio faylların yazılı məzmununu görə biləcəklər, veb səhifələrin bütün hissələri klaviatura və siçan vasitəsilə tədqiq edilə biləcək və s. Rəqəmsal iqtisadiyyat öz mahiyyətinə görə sərhədsizdir, lakin Avropa Vahid Rəqəmsal Bazarı hələ də parçalanmış olaraq qalır və müxtəlif milli bazar təcrübələri ilə xarakterizə edilir. Avropa Vahid Rəqəmsal Bazarı büsbütün inkişaf etdirərək 2020-ci ilə qədər 500 milyard Avro gəlir əldə edə bilər. Dövlət orqanlarına aid informasiyanın yenidən istifadə edilməsi, elektron idetifikasiya və e-imza təklifləri daxil olmaqla, qalan maneələri aradan qaldırmaq Avropa Rəqəmsal Gündəliyinin özəyini təşkil edir.

Komissiya onlayn xidmətlər üzrə rəqəmsal dəyişikliklərə nail olmaq və onları bütün Avropalılar üçün əlçatan etmək məqsədilə, rəqəmsal xidmətləri ictimai maraq dairəsində olan əsas sahələrə təqdim etməyi və yaymağı nəzərdə tutur və elektron informasiya sisteminin dövlətlərarası çox funksiyalı istifadəsini, məsələn, e-təchizat, e-ədliyyə, elektron səhiyyə və s. sənədlərini dəstəkləyir.

# Elektron xidmətlərdən istifadəni asanlaşdırmaq üçün "Elektron hökumət" portalı vətəndaşlara istifadə təlimatlarını təqdim edir



"Elektron hökumət" portalı tərəfindən təqdim olunan e-xidmətlərdən vətəndaşlarımızın daha çox və səmərəli şəkildə faydalanmaları məqsədilə Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Məlumat Hesablama Mərkəzi tərəfindən Bakı şəhərində və yerlərdə mütəmadi olaraq maarifləndirmə xarakterli tədbirlər və treyninqlər həyata keçirlir. Eyni zamanda vətəndaşların e-xidmətlərdən daha çox istifadə etmələri məqsədilə motivasiya xarakterli müsabiqələr və kampaniyalar keçirlir.

Təcrübə göstərir ki, vətəndaşlarımızın İKT üzrə savadlılıq səviyyəsi eyni olmadığından, bir sıra e-xidmətlərdən istifadə zamanı istifadəçilər çətinlik çəkirlər. Bu səbəbdən hal hazırda portalda yerləşdirilmiş 350-dən artıq e-xidmət üzrə İstifadəçi Təlimatlarının hazırlanıb portalda yerləşdirilməsinə zərurət yaranmışdır. Lakin heç də bütün dövlət qurumlar tərəfindən təlimatlar hazırlanıb təqdim olunmayb.

Prosesin sürətləndirilməsi məqsədilə "Elektron hökumət" portalının inzibatçıları tərəfindən bütün qurumların e-xidmətləri üzrə İstifadəçi Təlimatlarını hazırlanılmasına başlanılmışdır. Təxminən 100-ə yaxın İstifadəçi Təlimatı hazırlanaraq portalda E-xidmətlər bölməsində xidmətlərin qarşısında yerləşdirilmişdir. Bundan əlavə portalda bir sıra e-xidmətlərdən istifadə edilməsi qaydaları haqqında video-təlimatlar da yerləşdirilib. Bu prosesin davam etdirilməsi və bütün e-xidmətlər üçün İstifadəçi

Təlimatlarının və video-təlimatların hazırlanıb portalda yerləşdirilməsi nəzərdə tutulmuşdur. Məqsəd vətəndaşların xidmətlərdən istifadə qaydaları ilə tanış olmaları, xidmətdən istifadə üçün minimal biliklərin mənimsənilməsidir.

Eyni zamanda Nazirlər Kabinetinin müvafiq qərarına əsasən təsdiq edilmiş bütün e-xidmətlər üzrə İnzibati Reqlamentlər hazırlanaraq təsdiq edilməlidir. İnzibati Reqlamentlərdə elektron xidmətin adı, məzmunu, hüquqi əsası, digər icraçılar, elektron xidmətin göstərilməsinin nəticəsi, inzibatı procedurları və s. kimi məlumatlar öz əksini tapmaldır. Hal hazırda 23 e-xidmət üzrə İnzibati Reqlamentlər portalda yerləşdirilib və digər xidmətlər üzrə də İnzibati Reqlamentlərin portalda yerləşdirilməsi üçün dövlət qurumları ilə birgə işlər davam etdirilir.

# DSMF-də elektron hesabat xidməti üzrə təqdimat keçirilib






Fond elektron hesabat xidmətinin keyfiyyətinin artırılması və əhatə dairəsinin genişləndirilməsi sahəsində ardıcıl işlər görür.

Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 2 aprel tarixli Sərəncamı ilə təsdiq edilən "Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya"da qeyd olunur ki, informasiya və kommunikasiya texnologiyaları (İKT) respublikanın davamlı və dayanıqlı inkişafının təmin edilməsi, cəmiyyətdə şəffaflığın və demokratiyanın inkişaf etdirilməsi üçün əlverişli vasitə olaraq qəbul edilir. Ölkədə "elektron hökumət"in formalaşdırılmasına ciddi diqqət yetirilir və məmur-vətəndaş münasibətlərinin İT vasitələrindən istifadə etməklə sadələşdirilməsi, şəffaflaşdırılması bürokratik əngəllərin qarşısının alınmasına xidmət edir.

Dövlət orqanları tərəfindən göstərilən elektron xidmətlərin keyfiyyətinin artırılması və əhatə dairəsinin genişləndirilməsi, elektron xidmətlərin əlçatarlığının artırılması üçün ictimai çıxış məntəqələri şəbəkəsinin genişləndirilməsi, vətəndaşların "elektron hökumət" üzrə məlumatlılıq səviyyəsinin yüksəldilməsi sözügedən Strategiyanın başlıca prinsiplərindəndir.

"Elektron hökümət" portalının statistikasına əsasən DSMF-nin əhaliyə göstərdiyi elektron xidmətlər qısa müddət ərzində ən çox istifadə olunan xidmətlər sırasında ilk yerləri tutub. DSMF-də keçirirən təqdimatda qeyd olundu ki, Fond tərəfindən əhaliyə göstərilən elektron xidmətlərin keyfiyyətinin artırılması və əhatə dairəsinin genişləndirilməsi sahəsində ardıcıl işlər görülür. Bunlardan biri də elektron hesabat xidməti üzrədir.

Təqdimatda bildirildi ki, elektron hesabat xidmətindən istifadə qaydaları və xüsusi proqram təminatı DSMF-nin sspf.gov.az; www.e-sspf.gov.az saytlarında yerləşdirilib. "Məcburi dövlət sosial sığortası üzrə hesabatların (B1, B2) və məcburi dövlət sosial sığorta haqqı üzrə sığortaolunanlar haqqında məlumatın (B3) elektron formada qəbulu" adlı proqramda sığortaedənlərə təklif olunan elektron xidmətlər, onlardan istifadə qaydaları öz əksini tapıb. Bura sığortaedənin DSMF orqanlarında məcburi dövlət sosial sığortası üzrə rüblük (illik) hesabatı"nın tərtibi üzrə proqram təminatından istifadə, mülkiyyətində kənd təsərrüfatına yararlı torpaq sahəsi olan şəxsin DSMF orqanlarında məcburi dövlət sosial sığortası üzrə rüblük (illik) hesabatı"nın tərtibi üzrə proqram təminatından istifadə, məcburi dövlət sosial sığorta haqqı üzrə sığortaolunanlar haqqında məlumat"ın tərtibi üzrə proqram təminatından istifadə, hesabatları və məlumatları DSMF orqanlarına elektron formada təqdim etmə daxildir.

Hazırda bütün ölkə üzrə iri və orta sahibkarlardan hesabatlar tam elektron qaydada qəbul edilir. Kiçik ödəniş edən, mühasibatlığı avtomatlaşdırılmamış torpaq pay mülkiyyətçiləri, fərdi sahibkarıq fəaliyyəti ilə məşğul olan şəxslər isə DSMF-nin yerli şöbələrində yaradılmış "Yardım masaları"nın xidmətindən yararlanmaqla öz hesabatlarını elektron formada təqdim etmək imkanı qazanırlar. "Yardım masaları"nın fəaliyyətinin genişləndirilməsi ilə bağlı kiçik ödəniş edən sığorta edənlərin elektron hesabatlarının sayının daha da artacağı gözlənilir.

www.e-gov.az



# Elektron imzanın üstünlükləri




Elektron imza kargüzarlıq prosedurалarının elektronlaşdırılması və bununla bağlı kağız əməliyyatlarının ləğv edilməsi və minimallaşdırılması işlərində açar rolunu oynayır. On il bundan əvvəl kargüzarlıq dedikdə, üst-üstə qalaqlanmış, hər an təhlükəsizliyi üçün narahat olduğumuz sənəd işi başa düşülürdü və adi sənəd mübadiləsi üçün on gün və ya aylarla vaxt tələb olunurdu. Texnologiyanın sürətlə inkişaf etdiyi XXI əsrdə artıq dövrün tələblərini bu standartlarla ödəmək mümkün deyil. Elektron imza vasitəsilə həm işimizdə rahatlığımızı təmin edə, həm də narahatlıq yaşamadan uğur yolunu pillə-pillə qalxa bilərik.

Elektron imza vətəndaş-hökumət, hökumət-vətəndaş, biznes-hökumət, hökumət-biznes arasında elektron informasiya münasibətlərini təmin edir. Elektron imzadan istifadənin səmərəliliyini qısaca olaraq aşağıdakı kimi şərh etmək mümkündür:

- Elektron sənəd dövriyyəsi və təhlükəsizlik
- Kağız əməliyyatlarının ləğvi
- Sənədlərlə iş prosesində şəffaflıq
- Eyni sənədlə istənilən sayda istifadəçinin işləmə imkanı
- Hesabatların hazırlanmasında avtomatlaşdırma
- Sənəd arxivləri işinin səmərəli təşkili
- İdarəetmə effektivliyinin yüksəldilməsi

Bununla yanaşı, elektron imzanın üstünlüklərinə vaxta qənaət, məxfilik, rahatlıq, bütünlük, tanınma, inkaredilməzlik məsuliyyətdən yayınmanın mümkünsüzlüyü, işgüzar münasibətlərin və əlaqələrin tamamilə elektron formata keçirilməsi daxildir. Elektron imza ilə imzalanmış sənədlər bir neçə saniyə ərzində lazım olan yerə çatdırıla bilər. Elektron sənəd mübadiləsinin bütün iştirakçıları bir-birindən uzaqda olmalarına baxmayaraq, eyni imkanlar əldə edirlər.

Bir sözlə, elektron imza elektron sənəd mübadiləsində ən səmərəli vasitədir. Elektron imza virtual məkanda iştirakçıların şəxsiyyətini müəyyən edir, elektron sənəd mübadiləsinin təhlükəsiz və çevik icrasını təmin edir.

Qeyd edək ki, istifadəçilər http://www.e-imza.az linkindən istifadə edərək elektron imza haqqında ətraflı məlumat əldə edə bilər, tariflər, tələb olunan sənədlərlə tanış ola bilərlər.

Xatırladaq ki, elektron imza kartları və sertifikatları üçün müştəri ərizələrinin toplanılması, sertifikatların, kartların və ərizələrin emal statusu haqqında sorğulara baxılması prosesi qeydiyyat mərkəzlərində yerinə yetirilir. Bununla yanaşı, hər bir vətəndaş asanlıqla istənilən yerdən internet vasitəsi ilə e-imza.az saytından sertifikat almaq üçün onlayn rejimdə müraciət edə və ödəniş apara bilər.

# Azərbaycanda mobil nömrələrin satışı və sənədləşməsi “Elektron hökumət” portalı vasitəsilə həyata keçiriləcək

Hazırda mobil nömrələrin satışı və sənədləşdirilməsi prosesi pərakəndə şəkildə aparıldığından və yeni satılan nömrələrin sənədləşməsi zamanı abunəçiyə aid məlumatların sistemə əl ilə daxil edildiyindən tez-tez qeyri-dəqiqliyə yol verilir və vətəndaşların şəxsiyyət vəsiqələrindəki məlumatlarla Mobil Operatorların abunəçi bazalarındakı məlumatlar arasında uyğunsuzluqlar yaranır. Bu isə əməliyyat axtarış tədbirlərdə, müxtəlif sənədləşmələrin aparılmasında və s. bir sıra problemlərə gətirib çıxarır.

Qeyd olunan problemin birdəfəlik həll edilməsi məqsədilə yeni satılan mobil nömrələrin düzgün sənədləşdirilməsi üçün mobil operatorlara mərkəzləşmiş qaydada “Elektron hökumət” portalı üzərindən müvafiq servisinin verilməsi və yeni nömrələrin sənədləşdirilməsi prosesinin həmin servis vasitəsilə aparılması məqsədəuyğun hesab olunmuşdur.

Bu məqsədlə 04.08.2014-cü il tarixdə Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Məlumat Hesablama Mərkəzində (MHM) hər üç Mobil Operatorların nümayəndələri ilə birgə görüş keçirilmiş və qeyd olunan məsələnin detalları müzakirə edilmişdir.

İlkin olaraq müqavilə layihəsinin və Texniki Şərtlərin qısa müddətdə hazırlanması və birgə razılaşdırılması qərara alınmışdır.

Layihə istismara verildikdən sonra abunəçinin şəxsiyyət vəsiqəsinin nömrəsi və ya FİN kodu kompüterə daxil edildikdən sonra, və abunəçi barədə məlumatlar Daxili İşlər Nazirlyinin məlumat bazasından avtomatik olaraq yoxlanılacaqdır. Portala daxil olma elektron imza vasitəsilə mümkün olduğundan, nömrələrin sistemə işlənməsi zamanı əməliyyatıçının identifikasiyası, vətəndaşın pasport məlumatlarının Daxili İşlər Nazirlyinin məlumat bazasına daxil olaraq online rejimdə yoxlanılması mümkün olacaq.

Nəticədə mobil abunəçi bazaları ilk andan düzgün formalaşdırılacaq, məlumatların bir dəfə daxil edilməsi prinsipi gözləniləcək, əməliyyatlar online olaraq aidiyyatı dövlət qurumlarının serverlərində öz əksini tapacaqdır ki, aktivləşən mobil telefon nömrəsi informasiya sistemlərində həmin anda əksini tapacaqdır. Eyni zamnada Mobil Operatorların abunəçi bazalarının dəqiq formalaşması bir sıra sənədləşmə (bank, alqı-satqı və s.) prosesləri zamanı yaranan pronlemləri aradan qaldırmış olacaq, interaktiv SMS xidmətlərin inkişafına daha da rəvac vermiş olacaq.

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 17 oktyabr tarixli 235 nömrəli Qərarı ilə təsdiq olunmuş elektron xidmətlərin portala inteqrasiyası barədə

# MƏLUMAT

*01.08.2014*

| Sıra № | DÖVLƏT QURUMUNUN ADI | Təsdiq olunmuş e-xidmətlərin sayı | Təsdiq olunmuş e-xidmətlərdən portalda olanların sayı | Portalda yerləşdirilmiş e-xidmətlərin ümumi sayı | Qurumların öz saytlarında yerləşdirilmiş e-xidmətlərin ümumi sayı | Təsdiq olunmuş e-xidmətlərdən qurumların öz saytlarında olanların sayı |
|---|---|---|---|---|---|---|
| 1 | Xarici İşlər Nazirliyi | 3 | 1 | 1 | 3 | 3 |
| 2 | Daxili İşlər Nazirliyi | 24 | 1 | 2 | 24 | 24 |
| 3 | Ədliyyə Nazirliyi | 18 | 9 | 11 | 14 | 13 |
| 4 | Fövqəladə Hallar Nazirliyi | 3 | 3 | 3 | 3 | 3 |
| 5 | Maliyyə Nazirliyi | 4 | 0 | 0 | 8 | 3 |
| 6 | İqtisadiyyat və Sənaye Nazirliyi | 7 | 7 | 7 | 11 | 7 |
| 7 | Vergilər Nazirliyi | 59 | 46 | 46 | 54 | 53 |
| 8 | Energetika Nazirliyi | 8 | 6 | 6 | 7 | 5 |
| 9 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 12 | 6 | 11 | 1 | 0 |
| 10 | Kənd Təsərrüfatı Nazirliyi | 14 | 12 | 19 | 21 | 14 |
| 11 | Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 18 | 17 | 17 | 22 | 18 |
| 12 | Mədəniyyət və Turizm Nazirliyi | 17 | 0 | 0 | 6 | 5 |
| 13 | Təhsil Nazirliyi | 8 | 1 | 2 | 27 | 4 |
| 14 | Səhiyyə Nazirliyi | 38 | 31 | 31 | 32 | 31 |
| 15 | Rabitə və Yüksək Texnologiyalar Nazirliyi | 16 | 10 | 34 | 27 | 16 |
| 16 | Nəqliyyat Nazirliyi | 5 | 4 | 4 | 5 | 5 |
| 17 | Gənclər və İdman Nazirliyi | 6 | 4 | 4 | 5 | 5 |
| 18 | Müdafiə Sənayesi Nazirliyi | 1 | 1 | 1 | 1 | 1 |
| 19 | Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi | 10 | 10 | 12 | 13 | 10 |
| 20 | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | 1 | 1 | 1 | 1 | 1 |
| 21 | Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi | 4 | 4 | 4 | 4 | 4 |
| 22 | Dövlət Gömrük Komitəsi | 11 | 0 | 5 | 14 | 11 |
| 23 | Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi | 9 | 9 | 13 | 10 | 9 |
| 24 | Əmlak Məsələləri Dövlət Komitəsi | 22 | 16 | 22 | 22 | 14 |
| 25 | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | 2 | 1 | 1 | 2 | 2 |
| 26 | Dövlət Statistika Komitəsi | 5 | 5 | 5 | 5 | 5 |
| 27 | Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi | 6 | 0 | 0 | 1 | 1 |
| 28 | Diasporla İş üzrə Dövlət Komitəsi | 1 | 1 | 1 | 1 | 1 |
| 29 | Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi | 13 | 13 | 13 | 13 | 13 |
| 30 | Dövlət Sosial Müdafiə Fondu | 21 | 11 | 12 | 21 | 21 |
| 31 | AR Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya | 7 | 4 | 4 | 7 | 7 |
| 32 | Tələbə Qəbulu üzrə Dövlət Komissiyası (TQDK) | 14 | 13 | 14 | 14 | 13 |
| 33 | Dövlət Miqrasiya Xidməti | 10 | 1 | 1 | 10 | 10 |
| 34 | Dövlət Sərhəd Xidməti | 2 | 2 | 2 | 3 | 2 |
| 35 | Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti | 5 | 0 | 0 | 8 | 5 |
| 36 | Müəllif Hüquqları Agentliyi | 5 | 5 | 5 | 5 | 5 |
| 36-1 | Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi | 1 | 0 | 0 | 1 | 1 |
| 37 | Satınalmalar üzrə Dövlət Agentliyi | 3 | 0 | 0 | 3 | 3 |
| 37-1 | Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi | 3 | 2 | 2 | 4 | 3 |
| 38 | Dövlət Mülki Aviasiya Administrasiyası | 3 | 0 | 0 | 3 | 3 |
| 39 | Dövlət Dəniz Administrasiyası | 18 | 18 | 18 | 18 | 18 |
| 40 | Milli Arxiv İdarəsi | 2 | 2 | 2 | 1 | 1 |
| | **CƏMİ:** | **439** | **277** | **351** | **472** | **373** |

| | DÖVLƏT QURUMUNUN ADI | | | |
|---|---|---|---|---|
| 1 | "Meliorasiya və su təsərrüfatı" ASC | 2 | 2 | |
| 2 | "Azərsu" ASC | 2 | 3 | |
| 3 | "Azərenerji" ASC | 2 | 2 | |
| 4 | Mərkəzi Seçki Komissiyası | 6 | 9 | |
| 5 | “Elektron hökumət” portalı | 2 | 0 | |
| 6 | Baş Prokurorluq | 1 | 1 | |
| | **CƏMİ:** | **15** | **17** | |

| | | | | | |
|---|---|---|---|---|---|
| **YEKUN** | **439** | **277** | **351** | **472** | **373** |

## 01.07.2014 – 30.07.2014-cü il dövrü ərzində "Elektron hökumət" portalı vasitəsilə ən çox istifadə olunan e-xidmətlərin siyahısı:

| № | Xidmətin adı | Təchizatçının adı | Say |
|---|---|---|---|
| 1 | Namizədlərə, sınaq imtahanı iştirakçılarına imtahan nəticələri haqqında məlumatların internet və ya qısa mesaj (SMS) vasitəsilə verilməsi | TQDK | 580586 |
| 2 | Namizədlərə imtahana buraxılış vərəqələrinin internet vasitəsilə verilməsi | TQDK | 183622 |
| 3 | Namizədlərin elektron ixtisas seçimi ərizələrinin onlayn qəbulu | TQDK | 180632 |
| 4 | Əmək müqaviləsi bildirişlərinin qeydiyyata alınması və bu barədə işəgötürənə məlumatın verilməsi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 88469 |
| 5 | Telefon nömrəsi üzrə axtarış | RYTN | 50804 |
| 6 | Əmək müqaviləsi bildirişləri barədə məlumatların işçilər tərəfindən əldə edilməsi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 19004 |
| 7 | Sığortaolunanın onlayn uçota alınması | Dövlət Sosial Müdafiə Fondu | 13808 |
| 8 | Rabitə və kommunal xidmət haqlarının internet vasitəsilə ödənilməsi | RYTN | 13223 |
| 9 | TQDK-nın virtual ödəmə kartlarının onlayn və qısa mesaj (SMS) vasitəsilə satışı | TQDK | 12479 |
| 10 | Sığortaolunanlara məlumatların verilməsi | Dövlət Sosial Müdafiə Fondu | 8467 |
| 11 | Sığortaedənin uçot nömrəsinin öyrənilməsi | Dövlət Sosial Müdafiə Fondu | 7336 |
| 12 | Daşınmaz əmlakın ipotekasının dövlət qeydiyyatı üçün müraciətin və sənədlərin qəbulu | Əmlak Məsələləri Dövlət Komitəsi | 2914 |
| 13 | "Abituriyent ərizəsi"nin nömrəsinin axtariş sistemi | TQDK | 2731 |
| 14 | E-İmza - Operator üçün menyu | RYTN | 2554 |
| 15 | Pensiya kalkulyatoru | Dövlət Sosial Müdafiə Fondu | 2445 |
| 16 | Məcburi dövlət sosial sığorta vəsaitlərinin onlayn ödənilməsi | Dövlət Sosial Müdafiə Fondu | 2143 |
| 17 | Pensiyaçıya məlumatların verilməsi | Dövlət Sosial Müdafiə Fondu | 1498 |
| 18 | Mobil nömrə daşınması xidməti vasitəsilə digər şəbəkəyə daşınmış nömrələr barədə məlumatın verilməsi | RYTN | 1497 |
| 19 | Daşınmaz əmlak obyekti barədə daşınmaz əmlakın dövlət reyestrindən məlumatların verilməsi | Əmlak Məsələləri Dövlət Komitəsi | 1395 |
| 20 | Daşınmaz əmlakın ipotekasının dövlət qeydiyyatının ləğvi üçün müraciətin və sənədlərin qəbulu | Əmlak Məsələləri Dövlət Komitəsi | 1278 |

## 01.08.2014-cü il tarixə Dövlət İnformasiya Ehtiyatlarının və Fərdi Məlumatların İnformasiya Sistemlərinin Dövlət Reyestrlərinə daxil edilmiş məlumatlar barədə

*bütün qurumlar üzrə*

| Dövlət İnformasiya Ehtiyaları | Fərdi Məlumatların İnformasiya Sistemləri | Cəmi |
|---|---|---|
| 74 | 147 | 221 |

Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 181-4-cü maddəsinə əsasən, fərdi məlumatlar haqqında qanunvericiliklə dövlət qeydiyyatı tələb olunan, lakin dövlət qeydiyyatından keçməyən informasiya sistemində fərdi məlumatların toplanılmasına və ya işlənilməsinə görə 300 manatdan 500 manatadək cərimə tətbiq edilir.

## 30.07.2014 tarixə təqdim olunmuş elektron imza vəsiqələri barədə statistik məlumat

| Dövlət qurumlarına verilmiş sertifikatlar | Hüquqi şəxslərə verilmiş sertifikatlar | Vətəndaşlara verilmiş sertifikatlar | Cəmi |
|---|---|---|---|
| 14081 | 2004 | 5290 | 21375 |

## 2014-cü ilin iyul ayı ərzində bütün qurumlar üzrə "Elektron hökumət" portalı tərəfindən təqdim olunan e-xidmətlərdən istifadə barədə statistik məlumat:

| № | Xidmət təchizatçısının adı | Elektron xidmətlər | Xidmətlərdən istifadə |
|---|---|---|---|
| 1 | Tələbə Qəbulu üzrə Dövlət Komissiyası | 18 | 962480 |
| 2 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 6 | 108397 |
| 3 | Rabitə və Yüksək Texnologiyalar Nazirliyi | 46 | 73386 |
| 4 | Dövlət Sosial Müdafiə Fondu | 13 | 37841 |
| 5 | Əmlak Məsələləri Dövlət Komitəsi | 31 | 9432 |
| 6 | Daxili İşlər Nazirliyi | 2 | 1553 |
| 7 | "AzərEnerji" ASC | 2 | 868 |
| 8 | Elektron Hökumət Portalı | 2 | 808 |
| 9 | Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi | 2 | 689 |
| 10 | "Azərsu" ASC | 2 | 587 |
| 11 | Ədliyyə Nazirliyi | 11 | 535 |
| 12 | Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi | 13 | 443 |
| 13 | Mərkəzi Seçki Komissiyası | 7 | 418 |
| 14 | Səhiyyə Nazirliyi | 14 | 399 |
| 15 | Dövlət Gömrük Komitəsi | 6 | 347 |
| 16 | Təhsil Nazirliyi | 1 | 269 |
| 17 | Prezident yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya | 4 | 228 |
| 18 | Dövlət Statistika Komitəsi | 5 | 185 |
| 19 | Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi | 13 | 182 |
| 20 | Milli Arxiv İdarəsi | 2 | 173 |
| 21 | Kənd Təsərrüfatı Nazirliyi | 19 | 132 |
| 22 | Nəqliyyat Nazirliyi | 4 | 107 |
| 23 | Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti | 2 | 106 |
| 24 | Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi | 4 | 94 |
| 25 | Dövlət Dəniz Administrasiyası | 18 | 72 |
| 26 | Energetika Nazirliyi | 6 | 72 |
| 27 | Xarici İşlər Nazirliyi | 1 | 62 |
| 28 | Dövlət Sərhəd Xidməti | 2 | 57 |
| 29 | Diasporla İş üzrə Dövlət Komitəsi | 1 | 55 |
| 30 | Satınalmalar üzrə Dövlət Agentliyi | 8 | 52 |
| 31 | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | 1 | 52 |
| 32 | Fövqəladə Hallar Nazirliyi | 3 | 48 |
| 33 | Dövlət Miqrasiya Xidməti | 1 | 44 |
| 34 | Gənclər və İdman Nazirliyi | 4 | 40 |
| 35 | Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 14 | 38 |
| 36 | Baş Prokurorluq | 1 | 32 |
| 37 | İqtisadiyyat və Sənaye Nazirliyi | 7 | 27 |
| 38 | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | 1 | 26 |
| 39 | Müdafiə Sənayesi Nazirliyi | 1 | 26 |
| | **CƏMİ** | **298** | **1200290** |

# İyul ayında portala daxil olmalar və istifadə olunmuş xidmətlərin sayı rekord həddə çatmışdır: 1 200 406 xidmət




ŞƏKİL 2

Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin (RYTN) Məlumat Hesablama Mərkəzi (MHM) "Elektron hökumət" portalına daxilolmaların növbəti statistikasını təqdim edir. Statistik uçotun aparıldığı tarixdən 2012-ci ilin dekabrından 2014-cü ilin iyul ayının 31-ə qədər portala daxil olanlar haqda toplanan məlumatlar göstərir ki, portala ümumilikdə 1,613,533 daxilolma qeydə alınıb.

Portala müraciət edənlərin ümumi sayı isə 716,817 nəfər olub. Belə ki, 716, 817 nəfər ümumən 1,613,533 dəfə portala daxil olub və 2 585 460 elektron xidmətə müraciət ediblər. Həmin şəxslər 5,013,050 dəfə müxtəlif səhifələrə keçid ediblər və portala sərf etdikləri vaxt ortalama 4 dəqiqə 47 saniyə olub.

Ümumilikdə bu gün vətəndaşlarımızın portala marağının artması müşahidə olunmaqla yanaşı, təkrarən portala müraciət edənlərin də kütlə nisbəti artmaqdadır. Bu dövr ərzində portala müraciət edənlərin 44.5%-ni yeni istifadəçilər, 55.5%-ni isə təkrar müraciət edənlər təşkil edib.

Müqayisə üçün iyul ayının statistikasına nəzər salsaq, bu dövrdə portala 813 589 daxilolma qeydə alınıb. Portala müraciət edənlərin ümumi sayı isə 323 531 nəfər olub.Həmin şəxslər 390 931 olmaqla, müxtəlif səhifələrə keçid ediblər, 1200406 xidmətə müraciət edib və portala sərf etdikləri vaxt ortalama 4 dəqiqə 31 saniyə təşkil edib. İyul ayı ərzində portala müraciət edənlərin 64.4%-ni yeni istifadəçilər, 35.6%-ni isə təkrar müraciət edənlər təşkil edib.

İyun ayının sonunda TQDK-nın xidmətlərinin, iyul ayından isə ƏƏSMN-nin əmək müqaviləsi xidmətlərinin portala inteqrasiya olunması bu ay ərzində portala daxil olmaların və istifadə olunmuş xidmətlərin sayının pik həddə çatmasına səbəb olmuşdur.

Portal fəaliyyətə başladığı gündən iyulun 1-nə kimi 1 385




ŞƏKİL 1

www.e-gov.az

Elektron Hökumət Portalı

E-GOV - FİKİR BANKI

TƏKLİF GÖNDƏR

https://www.e-gov.az/teklifler

## İnternet istifadəçiləri tərəfindən "Fikir bankı"na göndərilən təkliflərdən seçmələri Sizin diqqətinizə təqdim edirik:

İstiqamət: **Ümumi**

*Rüsumu olan elektron xidmətlərin hamısının ödənişi online şəkildə (hesab.az) həyata keçirilməsi mümkün olsa çox gözəl olardı. Məsələn, Daxili işlər nazirliyinin sürücülük vəsiqəsinin alınması və rüsumların online şəkildə həyata keçirilməsinin elektronlaşması bütün vətəndaşların işini asanlaşdırardı, vətəndaş məmnuniyyəti yaradardı. Artıq ödənişlərə ehtiyac qalmazdı (bank rüsumu və sair).*

**MƏMMƏDOV ŞAMİL**

İstiqamət: **Ümumi**

*Salam! Müraciətim "Elektron hökumət" portalının (www.e-gov.az) əhatə dairəsinin daha da genişləndirilməsi ilə əlaqədardır. Məlum olduğu kimi hal hazırda portaldan smartfon tipli mobil telefonların abunəçiləri istifadə edə bilirlər. Təklif edirəm ki, "Elektron hökumət" portalının mobil versiyası yaradılsın və smartfon tipli olmayan adi mobil telefon abunəçiləri də portalın imkanlarından faydalana bilsinlər. Qeyd edirəm ki, Türkiyədə, Qazaxıstanda, Gürcüstanda və s. bu praktikadan geniş istifadə edilir. Belə ki, smartfon olmayan mobil telefondan istifadəçi portala daxil olub sorğu göndərir və portal tərəfindən SMS kanal vasitəsilə həmin nömrəyə cavab mətni ötürülür. Bu ən çox səhiyyə, təhsil və s. sahələrdə geniş yayılmışdır. Sizə bu sahədə uğurlar arzu edirəm.*
*Hörmətlə, İLQAR ABDULLAYEV*

**İLQAR ABDULLAYEV**

İstiqamət: **Əmlak Məsələləri Dövlət Komitəsi**

*Daşınmaz Əmlakın Dövlət Reyestrindən çıxarışı və texniki pasport üçün müraciəti Elektron Hökumət Portalından olarsa, bu haqda dövlət rüsumlarinin ödənişi də (apus.az) vəya (hesab.az) kimi online həyata keçirilsə daha yaxşı olardı.*

**ASLANOV BƏXTİYAR**

İstiqamət: **Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi**

*Əvvəlcə belə bir layihənin yaradılmasında və uğurla davam etdirilməsində əməyi olan hər bir şəxsə təşəkkürlərimi bildirir və işlərinizdə müvəffəqiyyətlər arzulayıram. Təklifim əmək müqaviləsi bildirişlərinin qeydiyyata alınması və bu barədə işəgötürənə məlumatın verilməsi ilə bağlıdır. Belə ki, həmin bu bildirişi bir az da təkmilləşdirib heç olmazsa Azərbaycan Respublikasının Əmək Məcəlləsinə 1-ci əlavədəki "Əmək müqaviləsinin (kontraktın) nümunəvi forması"na uyğunlaşdırmaq daha yaxşı olardı. Elektron əmək müqaviləsi bildirişi doldurulur, təsdiqi gəldikdən sonra çap edilir və tərəflər imzalayırlar. Belə olduqda işçi ilə müqavilə bağlanması prosesi biraz da sadələşmiş olur və əlavə əmək müqaviləsinin doldurulmasına ehtiyac yaranmır.*

**SEYİDOV ELDƏNİZ**

İstiqamət: **Digər**

*Salam, Müraciətim Azərbaycan Respublikasının Mərkəzi Bankının Mərkəzləşdirilmiş Kredit Reyestri Xidməti (MKR -http://www.nba.az/standalone/ccrs/) ilə əlaqədardır. MKR haqda məlumatlar ilə Mərkəsi Bankın yuxarıda göstərilən internet səhifəsindən tanış ola bilərsiniz. Təklifim ondan ibarətdir ki, fiziki şəxslərə MKR məlumatlarını E-gov Elektron Hökümət Portalından müraciət vasitəsilə əldə etmək imkanı yaradılsın.*
*Bir digər təklifim isə ondan ibarətdir ki, elektron ipoteka müraciətlərinin də E-gov Elektroin Hökümət Portalı vasitəsilə hazırlanıb İpoteka Fonduna / Fərdi Banklara təqdim olunması mümkün olsun.*
*Hörmətlə, Tariyel Rüstəmov.*

**TARİYEL RÜSTƏMOV**

© 2014 Məlumat Hesablama Mərkəzi
Ünvan: Bakı şəhəri, Droqal döngəsi, 702-ci məhəllə
Tel.: 157; Email: office@rabita.az

SYSTEM CERTIFICATION ISO 9001 SGS
UKAS ENVIRONMENTAL MANAGEMENT 005